# *Vasif SÜLEYMAN-60*



*Hörmətli Vasif müəllim!*

*Sizi - tanınmış şair-publisisti 60 illik yubileyiniz münasibətilə təbrik edirik.*

*Siz 3 yanvar 1965-ci ildə Şəmkir rayonunun Dəllər qəsəbəsində anadan olmusunuz. 1996-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmisiniz.*

*1982-ci ildə Gəncə "Aqrartikinti" trestində fəhlə kimi əmək fəaliyyətinə başlamısınız. 1983-1985-ci illərdə həqiqi hərbi xidmətdə olmusunuz. 1985-1992-ci illərdə Keşlə stansiyasında qatar tərtibçisi kimi əmək fəaliyyətinizi davam etdirmisiniz.*

*1992-ci ildən "Azərbaycan dəmiryolçusu" qəzetində müxbir kimi fəaliyyətə başlamısınız. 1993-2010-cu illərdə redaktor müavini, 2010-2022-ci illərdə "Azərbaycan dəmiryolçusu" qəzetinin redaktoru, "Ədəbiyyat qəzeti"nin redaksiya heyətinin üzvü olmusunuz. Hazırda "Azərbaycan Dəmir Yolları" QSC Yük Daşımaları Departamentinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsində mütəxəssis vəzifəsində çalışırsınız.*

*Sizin ilk şeiriniz ötən əsrin səksəninci illərində Şəmkir rayonunda çıxan "Ulduz" (indiki "Şəmkir") qəzetində çap olunub. Qırx ildən artıqdır ki, respublika mətbuatında bədii və publisistik yazılarınızla çıxış edirsiniz. Şeirləriniz Türkiyə, Özbəkistan və Qazaxıstanın ədəbi orqanlarında çap olunub.*

*"Sevgi atılandan sonra başlayır", "Eşq ol, dərgahına səcdəyə gəlim", "Bu ömürdür, mən dediyim, nağıl yox" adlı şeir kitablarınız, "Məxmər yolların sirri" adlı publisistik kitabınız (Elbariz Məmmədli ilə bilikdə) işıq üzü görüb.*

*"Qızıl qələm", Şahmar Əkbərzadə adına mükafatların laureatı, Prezident təqaüdçüsüsünüz. Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən İslam fəlsəfəsinin banisi, fəlsəfə, tibb və musiqi elmlərinə misilsiz töhfələr bəxş etmiş Əl-Fərabinin anadan olmasının 1155 illiyinə həsr olunmuş "Ədəbi Asiya-2024" - III Qazaxıstan Dünya Ədəbiyyat Müsabiqəsində poeziya nominasiyası üzrə QRAN-PRİ diplomuna layiq görülmüsünüz. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüsünüz.*

*Hörmətli Vasif Süleyman!*

*Sizi bir daha 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.*

**Azərbaycan Yazıçılar Birliyi**